# 2026-cı ilin yanvar ayı üzrə nəticələr

2026-cı ilin yanvar ayı üzrə istehlakçıların hüquqlarının qorunması, abonentlərin elektrik və istilik enerjisi, təbii qazla təchizatı və digər məsələlərlə bağlı Agentliyə bilavasitə və Energetika Nazirliyindən 1243 müraciət daxil olub.

**Bunlardan:**

Elektrik enerjisi təchizatı ilə bağlı 141-i məlumat üçün olmaqla cəmi 1000 müraciət;

Təbii qaz təchizatı ilə bağlı 6-sı məlumat üçün olmaqla cəmi 179 müraciət;

İstilik təchizatı ilə bağlı 4-ü məlumat üçün olmaqla cəmi 50 müraciət;

3-ü məlumat üçün olmaqla cəmi 14 müraciət isə digər məsələlərlə bağlı olub.

**1243 müraciətdən:**

573 müraciət Agentlik tərəfindən araşdırılıb və cavablandırılıb (17 müraciət müvafiq qaydada baxılması və tədbir görülməsi üçün aidiyyəti quruma göndərilib);

4 müraciət Energetika Nazirliyi ilə müştərək icra olunub;

512 müraciət hazırda baxılma prosesindədir;

154 məlumat xarakterli müraciətdən 80-i qaldırılan problemlərin həlli ilə bağlı təşəkkür məktubu olub.

## ELEKTRİK VƏ İSTİLİK ENERJİSİ, QAZ TƏCHİZATI

Yeni, yenidən qurulan, istifadə olunmasına icazə verilmiş gücü artırılan və enerjitəchizat sxemini dəyişən 15 tikinti obyektinin xarici elektrik enerjisi təchizatı üçün quraşdırılmış elektrik qurğularına istismara buraxılış aktı verilib;

40 razılaşdırılmış layihəyə əsasən tikintisi başa çatdırılmış sənaye qaz qurğularının istismarına icazə verilib;

“Azərenerji” ASC və “Azərişıq” ASC-nin nümayəndələrinin iştirakı ilə 7 hesablaşma elektrik sayğacının texniki vəziyyətinə baxış keçirilib.

## İNZİBATİ XƏTA HAQQINDA İŞLƏRƏ BAXILMA

Agentliyin səlahiyyətlərinə aid olan Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin

müvafiq maddələri üzrə 22 inzibati xəta haqqında işə baxılıb və inzibati tənbeh vermə haqqında qərarlar qəbul olunub.

## BÜDCƏDƏN MALİYYƏLƏŞƏN MÜƏSSİSƏLƏRDƏ KEÇİRİLƏN NƏZARƏT TƏDBİRLƏRİ

Elektrik qurğularının texniki istismarı, təhlükəsizlik texnikası qaydalarına əməl olunması və elektrik enerjisindən istifadənin vəziyyətinin araşdırılması məqsədilə 89 nəzarət tədbiri keçirilib;

Qazdan səmərəli istifadənin, "Qazdan istifadə Qaydaları"nın və qaz qurğularının etibarlı istismarının, həmçinin digər normativ hüquqi aktların tələblərinə əməl olunmasının vəziyyətinin araşdırılması məqsədilə 73 nəzarət tədbiri keçirilib.

## PEŞƏ BİLİKLƏRİNİN YOXLANILMASI

Agentlik tərəfindən hesabat dövrü ərzində 30 müəssisədə 79 nəfər olmaqla elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin texniki istismar, təhlükəsizlik texnikasıqaydaları üzrə peşə bilikləri yoxlanılıb, yoxlama nəticəsində biliklərin artırılması üzrə təkliflər verilib, bu istiqamətdə müvafiq şəxslərə metodiki yardım göstərilib.